**Azərbaycan Respublikası Ali Məhkəməsinin**

**Cinayət kollegiyasının hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin**

**vahidliyinin təmin edilməsinə dair**

**Q Ə R A R I**

**12 iyun 2026-cı il** **03/2026** **Bakı şəhəri**

Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasının hakimləri Nəsibov Hafiz Qənbər oğlu (sədrlik edən), Yusifov Şahin Yaşar oğlu, Qılıcov İlqar Səyyad oğlu, Novruzov Ələsgər Əli İskəndər oğlu, Rəcəbov İlkin Əbülfəz oğlu, Mövsümov Nazim Rasim oğlu, Cəfərov Vidadi Cəfər oğlu, Abdulov Rəşad Məhərrəm oğlu, Muxtarov Teyyub Asif oğlu, Cəfərov İlqar Xanlar oğlu, Hüseynov Zaur Nazim oğlu, Abdullayev İlkin Qismət oğlundan ibarət tərkibdə, məhkəmə iclas katibi Ələkbərli Pərvanə İsmayıl qızının iştirakı ilə,

Dünyamalıyev Amil Səfəralı oğluna Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 204.1-ci maddəsi ilə irəli sürülmüş ittiham üzrə bəraət verilməsinə dair cinayət işi üzrə Bakı Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 22 oktyabr 2025-ci il tarixli 1(105)-643/2025 nömrəli qərarından verilmiş kassasiya protestinə baxan Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasının məhkəmə tərkibinin təqdimatı ilə əlaqədar mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədi ilə baxaraq,

**M Ü Ə Y Y Ə N   E T D İ :**

Cinayət təqibi orqanı tərəfindən Dünyamalıyev Amil Səfəralı oğluna Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 204.1-ci maddəsi ilə irəli sürülmüş ittihama əsasən o, 12 fevral 2024-cü il tarixdə Bakı şəhərində, Bakı Metropoliteninin 20 yanvar stansiyası yaxınlığında yerləşən köşkdən 34 ədəd üzərində “Etibarsızdır” yazısı olan “100 manatlıq suvenir əsginaslar alaraq 5 ədədinin üzərində yazılan “Etibarsızdır” sözünü pozanla pozub saxta pul nomunalı hazırlayaraq, maliyyə əməliyyatları aparıb ödəniş vasitəsi kimi istifadə etmək, onların dəyişdirilməsi, əvəzli və əvəzsiz olaraq özgəninkiləşdirilməsi məqsədi ilə pul kisəsində saxlamış, 15 fevral 2024-cü il tarixdə saat 02.40 radələrində Abşeron rayonu, Xırdalan şəhəri, H.Əliyev prospektində yerləşən “Nazlı petrol” Yanacaq

Doldurma Məntəqəsi ilə üzbəüz yerləşən Əsgərov Zaur Qabil oğluna məxsus köşkə yaxınlaşaraq həmin saxta pul nominalından üzərində A seriyalı 00547024 nömrəli 100 nominal Azərbaycan manatı pul əsginasına oxşar, poliqrafik çap üsulu ilə hazırlanmış, fiziki-kimyəvi, texnoloji və poliqrafik mühafizə vasitələri ilə təhciz olunmamış, Mərkəzi Bank tərəfindən tədavülə buraxılan 100 nominal pul əsginası ilə eynilik təşkil etməyən saxta pul nominalını satıcıya təqdim edib bir ədəd "Sobraniye" markalı siqaret və 96 manat qalıq pul alaraq, həmin saxta pul nominalını satmaqla zərərçəkmiş Zaur Əsgərova 100 manat məbləğində ziyan vurmuş, özündə saxladığı 33 ədəd üzərində "etbarsızdır" yazısı olan 100 manatlıq suvenir əsginasları ilə könüllü olaraq təqdim etmişdir.

Abşeron Rayon Məhkəməsinin 21 iyul 2025-ci il tarixli 1(012)-430/2025 nömrəli hökmü ilə Dünyamalıyev Amil Səfəralı oğluna Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 204.1-ci maddəsi ilə irəli sürülmüş ittiham üzrə təqsirliliyinin sübuta yetirilməməsinə görə bəraət verilmişdir.

Məhkəmə belə nəticəyə gələrkən ittihamda saxtalaşdırıldığı iddia olunan 5 ədəd suvenir əginaslardan yalnız 1-nin ekspertizaya təqdim olunmasına, digər 4 ədədinin isə ümumiyyətlə ekspert tədqiqatının obyekti olmamasına; köşkdə A.S.Dünyamalıyevdən həmin 1 ədəd, ittihama görə üzərindəki "Etibarsızdır" yazısı pozulduğu suvenir əsginası qəbul etmiş satıcının dindirilməməsinə və ittiham aktında məhkəməyə çağrılmalı olan şəxslərin siyahısında onun adının göstərilməməsinə, zərərçəkmiş şəxs qismində tanınmış köşk sahibinin isə ifadəsində sözügedən suvenir əsginasın üzərində "etibarsızdır" yazısının olmasına dair məlumat verməsinə; ittihamda saxtalaşdırıldığı qeyd olunan və ibtidai istintaq materiallarına əsasən maddi sübut olaraq Abşeron Rayon Polis İdarəsində saxlanılan suvenir əsginasların məhkəmə iclasında tədqiq olunması məqsədi ilə verilmiş sorğuya cavab olaraq ibtidai istintaq orqanının həmin predmetləri məhkəməyə təqdim etməməsinə və yekunda onların məhkəmə istintaqının gedişində bilavasitə tədqiq edilməsinin mümkünsüzlüyünə istinad etmişdir.

Bununla yanaşı, birinci instansiya məhkəməsi bəraət hökmündə Zaur Əsgərova məxsus köşkə təqdim edilən 1 ədəd suvenir əsginasın fiziki-kimyəvi, texnoloji və poliqrafik mühafizə vasitələri ilə təhciz olunmamaqla Mərkəzi Bank tərəfindən tədavülə buraxılan 100 nominal pul əsginası ilə eynilik təşkil etməməsinə, Amil Dünyamalıyevin həmin gecə Z.Əsgərovun köşkünə gəlməzdən əvvəl sözügedən 1 ədəd suvenir əsginası başqa 4 köşkə təqdim edib mal almağa cəhd etməsinə lakin suvenir əsginas həqiqi 100 manatlıq banknotdan aşkar surətdə fərqləndiyi üçün onun satıcılar tərəfindən qəbul edilməməsinə istinad edərək, əslində hazırki işdə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 11 iyun 2015-ci il tarixli qərarının 9-cu bəndinə uyğun olaraq A.Dünyamalıyevin hərəkətlərinin məhz dələduzluq cinayəti ilə müqayisə edilməsi üçün əsasların olduğunu, sadəcə maddi sübut kimi tanınmış 5 ədəd suvenir əsginas, o cümlədən A seriyalı 00547024 nömrəli 100 nominal Azərbaycan manatı pul əsginasına oxşar cinayətin predmeti məhkəməyə təqdim olunmadığına, eləcə də CM-in 177-ci maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndinə əsasən dələduzluq cinayətinin tərkibinin yaranması üçün zərərçəkmiş şəxsə 500 manatdan artıq məbləğdə ziyanın vurulması tələb olunduğuna görə, A.S.Dünyamalıyevin əməlinin CM-in 204.1-ci maddəsindən 178-ci maddəsinə tövsif edilməsinin də mümkün olmadığını qeyd etmişdir.

Birinci instansiya məhkəməsinin hökmündən dövlət ittihamçısı apellyasiya protesti vermişdir.

Apellyasiya protestində bəraət hökmünün mübahisələndirilməsi üçün gətirilən dəlillər sırasında Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən Kərimov Nicat Nazim oğlunun Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 204.1-ci maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi üzrə çıxarılmış 16 may 2025-ci il tarixli 1(102)-679/2025 nömrəli qərarda ifadə olunmuş hüquqi mövqeyə (analoji hüquqi məsələnin həlli zamanı tətbiq edilmiş yanaşmaya) xüsusilə istinad olunmuşdur.

Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 22 oktyabr 2025-ci il tarixli 1(105)-643/2025 nömrəli qərarı ilə apellyasiya protesti təmin edilməmiş, Abşeron Rayon Məhkəməsinin 21 iyul 2025-ci il tarixli 1(012)-430/2025 nömrəli bəraət hökmü dəyişdirilmədən saxlanılmışdır.

Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 22 oktyabr 2025-ci il tarixli 1(105)-643/2025 nömrəli qərarından dövlət ittihamçısı tərəfindən kassasiya protesti verilmiş və protestdə A.S.Dünyamalıyevə bəraət verilməsinin əsassız olduğu iddia edilərək həmin hökmün dəyişdirilmədən saxlanılmasına dair apellyasiya instansiyası məhkəməsinin qərarının ləğv edilməsi, cinayət işinin apellyasiya instansiyası məhkəməsində yeni məhkəmə baxışına təyin edilməsi barədə tələb irəli sürülmüşdür.

İttiham tərəfinə görə məhkəmələrin hazırki işdə də rəhbər tutmalı olduqları lakin əsassız olaraq nəzərə almadıqları hüquqi mövqeyin əks olunduğu Kərimli Nicat Nazim oğlunun Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 204.1-ci maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi üzrə çıxarılmış Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasının 16 may 2025-ci il tarixli 1(102)-679/2025 nömrəli qərarında, eləcə də birinci və apellyasiya instansiyası məhkəmələrinin qərarlarında həqiqətən də hazırki işin hallarına anoloji olan faktiki hallar əməlin CM-in 204.1-ci maddəsinin, yoxsa CM-in 178-ci maddəsinin təsiri altına düşməsi baxmından hüquqi dəyərləndirilmə predmeti olmuşdur.

Belə ki, həmin işdə N.N.Kərimliyə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 204.1-ci maddəsi ilə ittiham irəli sürülmüşdü ona görə ki, o, “24 iyul 2023-cü il tarixdə saat 15 radələrində Bərdə şəhəri, meşəçilik institutu adlanan ünvanda yerləşən evində beş ədəd A seriyalı 00547024 nömrəli 100 (yüz) Azərbaycan manatı nominallı pul əsginasının təsvir olunduğu pul əsginasına oxşar obyektin üzərində qeyd olunmuş “etibarsızdır” yazısını mətbəx bıçağı ilə pozub satş məqsədilə fiziki-kimyəvi, texnoloji və poliqrafik mühafizə vasitələri ilə təhciz olunmamış, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən tədavülə buraxılmış eyni nominallı pul əsginası ilə eynilik təşkil etməyən beş ədəd A seriyalı 00547024 nömrəli 100 (yüz) Azərbaycan manatı nominallı saxta pul hazırlayaraq, 25 iyul 2023-cü il tarixdə saat 02.30 radələrində İmişli rayonu Otuziki kəndi ərazisində yeləşən “mal bazarında” həmin saxta pulları Hacıyev Sarvan Sədiman oğluna verib sonuncudan 500 (beş yüz) manat dəyərində iki baş quzu almışdır”.

Amil Dünyamalıyevin gecə vaxtı Xırdalan şəhərində köşkün satıcısına verdiyi üzərindəki “etibarsızdır” yazısı silinmiş 100 manatlıq suvenir “pul” elə köşkdəcə onun həqiqi banknot olmadığı aşkarlandıqdan sonra köşkün sahibi tərəfindən polis orqanına

təhvil verildiyi kimi, Nicat Kərimlinin barəsində olan cinayət işi üzrə də müəyyən edilmiş faktiki hallara görə N.Kərimli mal-heyvan bazarının çıxışında aldığı quzuların yükləndiyi avtomobildə bazarı tərk etmək üçün növbəsini gözlədiyi vaxt onun satıcıya verdiyi 5 ədəd 100 manatlıq suvenir pul əsginaslarının həqiqi banknotlar olmadığı elə satıcının özü tərəfindən aşkarlanmış və bazarın çıxışındaca quzular avtomobildən düşürdülərək geri alınmış, həmin 5 ədəd 100 manatlıq əsginaslar isə polis orqanına təhvil verilmişdir.

N.N.Kərimlinin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 204.1-ci maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işinə baxan İmişli Rayon Məhkəməsinin 2 may 2024-cü il tarixli hökmü ilə N.Kərimliyə əməlində cinayət tərkibinin olmaması əsası ilə bəraət verildikdən və bu hökmün mübahisələndirilməsinə dair apellyasiya protesti Şirvan Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 22 oktyabr 2024-cü il tarixli qərarı ilə təmin edilməyərək hökm dəyişdirilmədən qüvvədə saxlanıldıqdan sonra Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasının 16 may 2025-ci il tarixli 1(102)-679/2025 nömrəli qərarı ilə kassasiya protesti təmin edilib Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 416.1.2-ci maddəsində nəzərdə tutulmuş hala (sübutların həmin Məcəllənin 143-146-cı maddələrinə müvafiq surətdə qiymətləndirilməməsinə) istinad edilməklə Şirvan Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 22 oktyabr 2024-cü il tarixli qərarı ləğv edilmiş, cinayət işi apellyasiya instansiyası məhkəməsində yeni məhkəmə baxışına təyin edilmişdir.

Həmin işdə əməldə cinayət tərkibinin olmaması əsası ilə N.N.Kərimliyə bəraət verən birinci instansiya məhkəməsi və bəraət hökmünü dəyişdirilmədən qüvvədə saxlayan apellyasiya instansiyası məhkəməsi ondan çıxış etmişlər ki, 100 manatlıq 5 ədəd suvenir əsginasların üzərində “etibarsızdır” yazısı mətbəx bıçağı ilə silinsə də, həmin əsginaslar həqiqi 100 manatlıq əsginaslardan aşkar surətdə (fiziki-kimyəvi, texnoloji və poliqrafik mühafizə vasitələri ilə təhciz olunmamaqla yanaşı orqanolektik, yəni vizual əlamətlərə görə) fərqlənmişdir. Belə predmetlərin ödəniş vasitəsi kimi təqdim edilməsi yolu ilə özgə əmlakının ələ keçirilməsində ifadə olunan əməllər isə “Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 11 iyun 2015-ci il tarixli 15 nömrəli Qərarının 9-cu bəndində verilmiş izaha istinad edən birinci və apellyasiya instansiyası məhkəmələrinin hüquqi mövqeyinə görə CM-in 204-cü maddəsi ilə deyil, dələduzluq kimi – CM-in 178-ci maddəsi ilə tövsif olunmalıdır. Lakin ələ keçirilmiş quzuların dəyəri 500 manat təşkil etməklə CM-in 177-ci maddəsinin “Qeyd” hissəsinin 1-ci bəndinə görə CM-in 178.1-ci maddəsi ilə cinayət məsuliyyətinin yaranması üçün tələb olunan ziyanın miqdarından az olduğundan (500 manatdan artıq olmadığından), N.N.Kərimlinin əməlinin CM-in 204.1-ci maddəsindən 178-ci maddəsinə tövsifi də istisna edilir. Bu səbəbdən məhkəmələr hesab etmişlər ki, N.Kərimlinin hərəkətləri cinayət tərkibi yaratmayan əməllər kimi qiymətləndirilib həmin əsasla ona CM-in 204.1-ci maddəsi ilə irəli sürülmüş ittiham üzrə bəraət verilməlidir.

N.N.Kərimlinin barəsində cinayət işinə baxan Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasının məhkəmə tərkibi isə təsvir olunan hüquqi mövqeyin rəhbər tutulduğu məhkəmə qərarının mübahisələndirilməsinə həsr olunmuş kassasiya protesti ilə razılaşaraq N.N.Kərimliyə əsassız olaraq (sübutlar CPM-in 143-146-cı

maddələrinin tələblərinə müvafiq surətdə qiymətləndirilmədən) bəraət verilməsi haqqında nəticəyə gəlmiş və bu qənaətini əsasən aşağıdakı üç dəlil üzərində qurmuşdur.

Belə ki, Ali Məhkəmənin Cinayət kollegiyasının məhkəmə tərkibi hesab etmişdir ki, “Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 11 iyun 2015-ci il tarixli 15 nömrəli Qərarının 9-cu bəndində verilmiş izahda əməlin CM-in 204-cü maddəsində nəzərdə tutulmuş cinayət kimi deyil, dələduzluq cinayəti kimi qiymətləndirilməsi üçün saxta pulun həqiqi puldan aşkar surətdə fərqlənməsi tələb olunduğu halda baxılan işdə N.N.Kərimlinin 5 əsginasın üzərində “etbarsızdır” yazısını bıçaqla silməsi iş materialları ilə sübut olunmuşdur.

Məhkəmə tərkibinin ikinci əsas dəlili ondan ibarət olmuşdur ki, aşağı instansiya məhkəmələri N.N.Kərimlinin bazarda təqdim etdiyi 5 saxta əsginasın həqiqi 100 manatlıq əsginasdan açıq-aşkar fərqlənməsi barədə qənaətlərini iş üzrə keçirilmiş məhkəmə ekspertizalarının rəylərinə istinad etməklə əsaslandırsalar da, ibtidai istintaqın gedişində alınmış 1 sentyabr 2023-cü il tarixli 5/1113 nömrəli ekspert rəyində və apellyasiya instansiyası məhkəməsində aparılan icraat dövründə alınmış 8 avqust 2024-cü il tarixli 5/852 nömrəli ekspert rəyində N.N.Kərimov tərəfindən təqdim olunan əsginasların həqiqi əsginaslardan açıq-aydın şəkildə fərqləndiyi göstərilməmiş, bu məsələnin hüquqi məsələ olaraq ekspert tərəfindən deyil, məhkəmə tərəfindən həll edilməli olması qeyd olunmuşdur.

Birinci ekspertiza rəyində ekspertin gəldiyi nəticəyə görə 5 ədəd A seriyalı 00547024 nömrəli 100 Azərbaycan manatı nominallı pul əsginasına oxşar obyekt fiziki-kimyəvi, texnoloji və poliqrafik mühafizə vasitələri ilə təhciz olunmamış, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən tədavülə buraxılmış eyni nominallı pul əsginası ilə eynilik təşkil etmir. İkinci ekspert rəyininin nəticə hissəsində göstərilənlərə görə isə həmin 5 ədəd A seriyalı 00547024 nömrəli 100 nominal Azərbaycan manatı pul əsginasına oxşar tədqiqat obyektlərində pul əsginasları üçün müəyyən olunan I dərəcəli mühafizə elementləri və ya onların imitasiyası mövcud deyil, onlar Mərkəzi Bank tərəfindən tədavülə buraxılan eyni nominallı pul əsginasından orqanolektik (vizual) əlamətlərə görə fərqlənirlər.

Məhkəmə tərkibinin üçüncü əsas dəlili isə ondan ibarət olmuşdur ki, Ali Məhkəmənin yuxarıda istinad olunan Plenum qərarının 9-cu bəndində əməlin CM-in 204-cü maddəsi ilə deyil, dələduzluq kimi qiymətləndirilməsi üçün şəxsin qəsdinin aşkar surətdə məhdud şəxslər dairəsinin aldadılmasına yönəlməsi sübut edilməli olduğu halda, N.N.Kərimlinin saxta pul hazırlamaqda niyyətinin məhz məhdud şəxslərin aldadılması olması öz təsdiqini tapmamışdır. Çünki o, saxta pul hazırlamaqla satış məqsədi güddüyü üçün onun bu niyyətini həyata keçirərkən qəsdini istənilən şəxsə yönəldə bilməsi ehtimalı istisna olunmur. Yəni, məhkəmə tərkibinin qənaətinə görə baxılan işin hallarından N.Kərimlinin qəsdinin məhz məhdud şəxslər dairəsinin aldadılmasına yönəldilməsi müəyyən olunmamışdır.

Hazırda A.S.Dünyamalıyevə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 204.1-ci maddəsi ilə irəli sürülümüş ittiham üzrə bəraət verilməsinə dair cinayət işinə

kassasiya qaydasında baxan məhkəmə tərkibi ittiham tərəfinin xüsusilə əsaslandığı Ali Məhkəmənin Cinayət kollegiyasının 16 may 2025-ci il tarixli qərarında ifadə olunmuş hüquqi mövqeləri bölüşmədiyindən, üzərindəki “etbarsızdır” yazısı silinmiş suvenir pul əginasından ödəniş vasitəsi kimi istifadə edilməklə malın alınmasının (özgə əmlakının ələ keçirilməsinin) CM-in 204-cü maddəsinin (saxta pul hazırlamanın və satmanın) deyil, başqa zəruri əlamətlər də olduqda, o cümlədən zərərçəkmiş şəxsə vurulmuş ziyanın miqdarına dair CM-in 177-ci maddəsinin “Qeyd” hissəsinin 1-ci bəndində göstərilən şərtlərə əməl olunduqda, dələduzluq cinayətinin tərkibini yaratması barədə hüquqi mövqedə olduğundan, həmin mübahisəli hüquqi məsələyə CPM-in 419-1-ci maddəsində nəzərdə tutulmuş prosedurda, Cinayət kollegiyasının bütün hakimlərindən ibarət tərkibdə baxılması üçün təqdimatla Ali Məhkəmənin sədrinə müraciət etmiş və təqdimatla əlaqədar Ali Məhkəmənin sədri tərəfindən hazırkı iclas təyin olunmuşdur.

Mübahisəli hüquqi məsələyə baxılmasına dair Cinayət kollegiyasının iclasında kollegiyaya daxil olan on iki nəfər hakimin hamısı iştirak etmiş və belə iclasda kollegiyanın hakimlərinin ən azı üçdə ikisinin iştirak etməsini tələb edən CPM-in 419-1.2-ci maddəsinin müddəasına əməl olunduğundan, iclas səlahiyyətli sayılmışdır.

Kollegiyanın bütün hakimlərindən ibarət olan tərkibi təqdimatda qaldırılan hüquqi məsələlər üzrə aşağıdakı nəticəyə gəlmişdir.

Məhkəmə tərkibləri arasında fikir ayrılığı həm təqdimatdan, həm də kollegiyanın iclasında söylənilən fikirlərdən göründüyü kimi, mahiyyət etibarı ilə “Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 11 iyun 2015-ci il tarixli 15 nömrəli Qərarının 9-cu bəndində verilmiş izahın, xüsusilə də həmin izahda işlədilən “saxta pulun, xarici valyutanın, qiymətli kağızların aşkar formada əslindən fərqlənməsi”, “qəsdin aşkar surətdə məhdud şəxslər dairəsinin aldadılmasına yönəlməsi” kimi qiymətləndirilməyə bağlı olan əlamətlərin (meyarların), eləcə də məhkəmə ekspertizası rəyinin həmin əlamətlərin sübuta yetirilməsində oynadığı rolun fərqli başa düşülməsindən irəli gəldiyindən, kollegiya ilk növbədə Plenum qərarının sözügedən məsələlərə həsr olunmuş müddəalarının şərh olunmasını zəruri hesab edir.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 11 iyun 2015-ci il tarixli qərarının 9-cu bəndi aşağıdakı məzmundadır:

“Satış məqsədilə saxta pul, qiymətli dövlət kağızları və ya xarici valyuta, yaxud xarici valyutada ifadə olunan qiymətli kağızları hazırlama, əldə etmə və ya satma zahiri cəhətdən dələduzluq cinayətinin əlamətlərinə oxşar olsa da, belə əməllər xüsusi norma kimi çıxış edən CM-in 204-cü maddəsi ilə tövsif olunmalıdır.

Saxta pulun, xarici valyutanın və ya qiymətli kağızların satılması o zaman dələduzluq kimi qiymətləndirilə bilər ki, onlar aşkar formada əslindən fərqlənsinlər və həmin pulun, valyutanın və qiymətli kağızların dövriyyədə istifadə edilməsi istisna edilsin. Bu zaman təqsirləndirilən şəxsin qəsdinin aşkar surətdə məhdud şəxslər dairəsinin aldadılmasına yönəlməsi sübut edilməlidir.

Bununla yanaşı, saxta lotereya bileti əsasında uduş (pul, əmlak) əldə etmə CM-in 204-cü maddəsinin dispozisiyası ilə əhatə olunmadığına görə, belə əməl də CM-in 178-ci maddəsi ilə tövsif olunmalıdır."

Bu izahda "saxta pulun, xarici valyutanın, qiymətli kağızların aşkar formada əslindən fərqlənməsi" və "qəsdin aşkar surətdə məhdud şəxslər dairəsinin aldadılmasına yönəlməsi" bir-birindən fərqlənən (birincisi əməlin obyektiv cəhətini aşkarlayan, ikincisi isə subyektiv cəhətinə aid olan) müstəqil əlamətlər kimi verilsələr də, əslində onlar bir - biri ilə sıx bağlı olub hər biri barədə nəticənin digər əlamət üzrə müəyyən edilmiş faktiki hallardan asılı olan qiymətləndirici meyarlardır ki, yalnız onlarla bağlı müəyyən olunmuş bütün halların məcmusu birlikdə götürülməklə qiymətləndirildikdə törədilən əməllə cinayət qanununun qoruduğu hansı obyektin – dövlətin maliyyə, normal pul dövriyyəsi sisteminin, yoxsa şəxslərin mülkiyyət hüququnun təhlükə altına alınması barədə məsələ, müvafiq olaraq da əməlin CM-in 204-cü maddəsinin, yoxsa 178-ci maddəsinin tərkibini yaratması barədə hüquqi problem düzgün həll oluna bilər.

Əsl pul əsginasından açıq-aşkar fərqlənən, beləliklə də dövriyyədə həqiqi pul kimi istifadəsi istisna edilən materialın hazırlanması şəxsin qəsdinin məhdud dairədə şəxslərin aldadılmasına yönəldiyini aşkarladığı kimi, öncədən şəxsin qəsdinin məhdud dairədə şəxsləri aldatmaq olması müstəsna olaraq məhz belə (məhdud) şəxslər dairəsini aldatmaq üçün hesablanmaqla dövriyyədə istifadəsi istisna edilən, əslindən açıq-aşkar fərqlənən materialın hazırlanmasını şərtləndirə bilər.

Pul banknotuna oxşadılmış materialın "aşkar formada əslindən fərqlənməsi və ya fərqlənməməsi" barədə dəyərləndirmə subyektiv qiymətləndirməyə bağlı olan və hər bir fərdin ona təqdim olunan materialı həqiqi əsginasla müqayisə etmək qabiliyyətindən və müqayisənin aparıldığı şəraitlə şərtləndirilmiş imkanlarından, o cümlədən həmin şəxsin yaşından, fərdi fiziki-psixoloji keyfiyyətlərindən, həyat təcrübəsindən, işinə münasibətindən, materialın təqdim olunduğu məkandan, zamandan və s. asılı olan prosesdir. Məsələn, gecə vaxtı, sırada çox sayda müştərilərin gözlədiyi səsli-küylü şəraitdə, görmə qabiliyyəti zəif olan və xəstəliyi üzündən özünü pis hiss edən ahıl satıcı ona təqdim olunan materialın həqiqi pul olmadığını müəyyən edə bilməyə, lakin eyni şəraitdə cavan və iş qabiliyyəti yüksək olan satıcı eyni predmetin həqiqi pul olmadığını dərhal – həmin materiala ilk toxunuşda aşkarlaya bilər. Bu misalda cavan satıcının subyektiv qiymətləndirilməsinə görə ona təqdim olunan material aşkar surətdə əsl pul əsginasından fərqlənən predmetdirsə, ahıl satıcının qiymətləndirilməsində - bu belə deyil.

Lakin cinayət prosesində sözügedən materialı hazırlayan və həmin materialı əsl pul kimi tədqim etməklə özgə əmlakını ələ keçirən şəxsin əməlinin düzgün qiymətləndirilməsi, beləliklə də hüququn tədbiqində ziddiyyətləri istisna etmək üçün təqsirkarın qəsdinin cinayət qanununun mühafizə etdiyi hansı obyektə yönəldiyini düzgün müəyyən etmək tələb olunur. Bu məqsəd isə onu tələb edir ki, saxta materialın "aşkar formada əslindən fərqlənməsi" əlamətinə dair nəticə hər nə qədər konkret işin xüsusiyyətləri ilə bağlı olsa da, aldadılan bu və ya digər subyektin fərdi keyfiyyətlərindən, nə kimi fiziki-psixi qüsurlarının olmasından, emosional vəziyyətindən, işinə vicdanla və ya vicdansızcasına yanaşmasından asılı edilməsin və hüquqtətbiqetmə təcrübəsində şərh

edilən əlamət üzrə düzgün nəticəyə gəlməyə imkan verən, hər bir işdə rəhbər tutulan aydın, səciyyəvi meyar göstərilsin.

İşdən-işə fərqli yanaşmaları (hüququn ziddiyyətli tətbiqiqini) istisna etmək üçün isə belə meyar qismində orta statistik insanın (adi müşahidəçinin) baxışında əsl pul əvəzinə təqdim olunan materialın nə cür qiymətləndirilə bilməsi götürülməlidir. Əgər hazırlanan, təqdim olunan material xüsusi əlamətlərlə seçilən (ahıl, azyaşlı, fizki-psixi qüsurları olan, diqqətin yayındırıldığı şəraitdə fəaliyyət göstərən və s. bu kimi əlamətlərlə müşayiət olunan) insanları deyil, adi müşahidəçini (orta statistik insanı) yanılda biləcək (onun tərəfindən aşkarlanmayacaq) dərəcədə əsl pul əsginasına bənzəyirsə - belə material CM-in 204-cü maddəsinin predmeti kimi qəbul edilə bilər. Yox, əgər hazırlanan, təqdim olunan materialla həqiqi pul əsginası arasında fərq o qədərdir ki, bu fərqlərə görə adi müşahidəçi (orta statistik insan) belə onun əsl pul olmadığını dərhal aşkarlaya bilər – bu halda sözügedən predmet pul dövriyyəsinə həqiqi ödəniş vasitəsi kimi girmək keyfiyyətinə malik olmayan - əsl puldan aşkar surətdə fərqlənən (CM-in 204-cü maddəsinin predmetinə aid edilməyən) material kimi nəzərdən keçirilməlidir.

Bu yanaşma ABŞ təcrübəsinə də əsaslanır. Belə ki, ABŞ-da "valyutanın saxtalaşdırılması" anlayışından deyil, "Valyuta kontrafaktının qarşısının alınması üzrə Beynəlxalq Konvensiya"da (Cenevrə Konvensiyasında) olduğu kimi (Azərbaycan Respublikası bu Konvensiyaya qoşulmamışdır), "valyuta kontrafaktı" anlayışından istifadə olunur ("kontrafakt" dedikdə, əşyanın və ya valyutanın icazəsiz surətinin və ya imitasiyasının həqiqi kimi göstərilməsi məqsədilə hazırlanması başa düşülür). Həmin ölkənin təcrübəsinə görə "pul" real puldan o qədər fərqlənsə ki, orta statistik insan onun saxta olduğunu dərhal başa düşsün, bu hal kontrafakt pul ittihamına əsas yaratmır. Əgər həmin "pul nişanı" orta statistik insandan daha təcrübəli hesab edilən "təlim keçmiş göz"ü yanıltmağa imkan verməsə də, orta statistik insanı yanılda bilərsə, onda həmin hal kontrafakt pul ittihamına əsasdır ("təlim keçmiş göz" adi müşahidəçinin tamamilə gözdən qaçıracağı müəyyən bir sahədəki incə detalları, səhvləri və ya naxışları görmək bacarığıdır).

Saxta pulun, xarici valyutanın və ya qiymətli kağızların aşkar formada əslindən fərqlənib-fərqlənməməsi məsələsinin həllində cinayətin predmeti barədə keçirilmiş məhkəmə-texniki ekspertizasının rəyinin əhəmiyyətinə gəldikdə, ilk növbədə qeyd olunmalıdır ki, cinayət prosesində sübutlar, o cümlədən məhkəmə ekspertizasının rəyi qiymətləndirilərkən Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tələbləri, o cümlədən cinayət prosesində heç bir sübutun və digər materialın qabaqcadan müəyyən edilmiş qüvvəsinin olmaması barədə cinayət-prosessual qanunun 33.3-cü maddəsinin tələbi rəhbər tutulmalıdır.

Cinayət-Prosessual Məcəllənin 145.2-ci maddəsinə əsasən təhqiqatçı, müstəntiq, prokuror, hakim qanunu və vicdanını rəhbər tutaraq sübutların məcmusunun hərtərəfli, tam və obyektiv baxılmasına əsaslanmaqla öz daxili inamına görə sübutları qiymətləndirirlər.

Cinayət-prosessual qanunun 127.3-cü maddəsinə əsasən ekspertin rəyi tədqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə üçün məcburi deyil, hər hansı sübut kimi

cinayət prosesini həyata keçirən orqan tərəfindən yoxlanılmalı və işin bütün halları ilə bağlı surətdə qiymətləndirilməlidir. Ekspertin rəyi ilə razılaşmadıqda, bu barədə əsaslandırılmış qərar çıxarılmalıdır.

Məhkəmə ekspertizaları fəaliyyəti haqqında Azərbaycan Respublikasının 18 noyabr 1999-cu il tarixli 758-IQ nömrəli Qanununun 1-ci maddəsinə əsasən məhkəmə ekspertizası - təhqiqat, ibtidai istintaq orqanının və ya məhkəmənin (hakimin) icraatında olan işin halları barədə informasiya daşıyan maddi obyektlər, hadisələr və proseslər haqqında xüsusi elmi biliklər əsasında aparılan tədqiqatdır. Qanunun 12-ci maddəsinə əsasən verilən suallar ekspertin zəruri biliyindən kənara çıxdıqda ekspert ekspertizanın aparılmasından imtina edir.

Cinayət Məcəlləsinin 204-cü maddəsi ilə irəli sürülmüş ittihamlar üzrə cinayət işlərinə məhkəmədə baxılarkən, o cümlədən gedişatda ittihamda təsvir olunan əməlin dələduzluq əməlini təsbit edən CM-in 178-ci maddəsi ilə müqayisəsini aparmaq zərurətinin yaranması ilə əlaqədar cinayətin predmeti barədə keçirilmiş məhkəmə ekspertizasının rəyini qiymətləndirərkən də CPM-in və əlaqəli qanunvericiliyin yuxarıda göstərilən və digər tələbləri rəhbər tutulmalı və bu zaman o da nəzərdən qaçırılmamalıdır ki, saxta pul əsginasının həqiqi əsginasdan aşkar surətdə fərqlənməsi və ya fərqlənməməsi, yəni fərqin aşkar və ya qeyri-aşkar olması barədə məsələ ekspertiza tədqiqatının predmetini təşkil etmir. Çünki, xüsusi biliklər sferasına aid olmayan bu sual üzrə qənaət, irəli sürülmüş ittihamda təsvir edilən əməlin tövsifi zamanı əhəmiyyət kəsb edən mühüm hüquqi məsələnin həllini ehtiva etməklə məhkəmədə sübutların məcmusunun (onların sırasında həm də məhkəmə ekspertizasının rəyinin) tədqiq edilməsindən və dəyərləndirilməsindən hasil olunur, beləliklə də ekspertizanın deyil, məhz məhkəmə araşdırmasının nəticəsi kimi çıxış edir.

Tədqiqat obyektinin həqiqi puldan nə dərəcədə, yəni açıq-aşkar fəqlənib-fəqlənməməsi barədə nəticə bu sahədə mütəxəssis olan, yəni xüsusi biliklərə malik olan ekspertlərin (“təlim keçmiş göz”ün) qənaətinə deyil, yuxarıda qeyd olunduğu kimi, adi müşahidəçinin, orta statistik insanın baxışına (adi müşahidəçinin baxışında bunun nə cür görsənməsi barədə məhkəmə qənaətinə) əsaslanmalıdır.

Odur ki, belə işlərdə cinayətin predmeti barədə məhkəmə-texniki ekspertizası təyin edilərkən ekspert qarşısında tədqiqat üçün təqdim olunan obyektin əsl pul əsginasından aşkar surətdə fərqlənib-fərqlənməməsi barədə sual qoyulmamalı, ümumiyyətlə ekspertdən fərqin aşkar və ya aşkar olmayan dərəcədə olması barədə nəticə gözlənilməməlidir.

Lakin ekspert rəyinin sözügedən məsələ barədə nəticəni əks etdirməməsi onun sübut kimi əhəmiyyətini qətiyyən kiçiltmir.

Çünki, bu cür işlər üzrə təyin olunmuş məhkəmə-texniki ekspertizaların rəylərində tədqiqat obyektinin əsl pul olmaması, hansı üsulla hazırlanması, hansı əlamətlərə görə həqiqi əsginasdan fərqlənməsi və s. xüsusi biliklər sferasına aid məsələlər barədə fikirlər söylənilə bilər ki, bunlar da sübutların və müəyyən olunmuş halların qiymətləndirilməsi prosesində, o cümlədən əsginasın həqiqi əsginasdan aşkar surətdə fərqlənib-fərqlənməməsi (ekspertiza zamanı müəyyən edilmiş fərqlərin onları adi müşahidəçinin

dərhal görə biləcəyi, yoxsa “təlim keçmiş göz”ün aşkarlaya biləcəyi xarakterdə olması) barədə məsələnin həllində məhkəməyə xüsusilə kömək edə bilər.

Plenum qərarının 9-cu bəndində CM-in 204-cü və 178-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin fərqləndirici meyarı kimi təsbit edilmiş “qəsdin aşkar surətdə məhdud şəxslər dairəsinin aldadılmasına yönəlməsi” əlamətinə gəldikdə, ilk növbədə o, qeyd olunmalıdır ki, bu əlamət cinayət tərkibinin subyektiv cəhətinə aid olsa da, həmin əlamət üzrə nəticə yalnız təqsirkarın özünün əsl pula oxşar əsginasları hazırlayarkən və ya onları həqiqi pul kimi mal almaq üçün digər şəxslərə təqdim edərkən məqsədinin nədən ibarət olması (qəsdinin hansı obyektə yönəlməsi) barədə bildirdiklərinə görə deyil, həm də işin obyektiv hallarına əsasən müəyyən edilə bilər.

Nəzərə almaq lazımdır ki, Plenum qərarında “məhdud şəxslər dairəsi” dedikdə, yalnız təqsirkar tərəfindən öncədən fərdi müəyyən edilmiş (həqiqi olmayan “pul” verilməklə aldadılmalı olan konkret şəxs və ya şəxslər) ehtiva olunmur və işin həqiqi hallarının məcmusuna görə öncədən aldadılmalı olan konkret şəxslər müəyyən edilmiş olmasalar da, təqsirkarın qəsdinin məhz məhdud şəxslər dairəsinə yönəldiyi sübut olunmuş sayıla bilər.

Məsələn, şəxsin qəsdinin məhz məhdud şəxslər dairəsinin aldılmasına yönəldiyi həm də onunla təsdiq oluna bilər ki, hazırlanmış və ya başqa şəkildə əldə olunmuş predmet həqiqi pul əsginasının kobud imitasiyası və az sayda olmaqla yanaşı, təqsirkar onu başqasına (öncədən müəyyənləşdirmədiyi şəxsə belə) “satmaq” üçün saxtalaşdırılmanın aşkarlanmasını çətinləşdirən zamanı, yeri, şəraiti (gecə vaxtını, əlverişsiz hava şəraitinin, işıqlandırılmanın zəif olduğu, səsli-küylü, insanların çox toplaşdığı, diqqəti yayındıran digər amillərin olduğu yerləri) seçmiş olar; “pul”un həqiqi əsginas olmadığı dövriyyəyə daxil olmadan (zərərçəkmişdən pul qismində başqasına keçmədən) elə verildiyi yerdəcə dərhal və ya az müddət sonra aşkarlanmış olar.

Bu cür hallar təqsirkar tərəfindən onun hazırladığı (əldə etdiyi) vasitənin kobud (həqiqi puldan aşkar surətdə fərqlənən) imitasiya olmasının və həqiqi pul olaraq dövriyyəyə girə bilməsinin istisna olunmasının dərk edilməsinin, müvafiq olaraq da onun qəsdinin saxta pul satmaqla adi şəraitdə olan, yəni qeyri-məhdud dairədə şəxslərin aldadılmasına deyil, xüsusi şəraitdə və xüsusi şərtlər altında olan, bu üzdən dairəsi yalnız həmin şəxslərlə məhdudlaşan subyektlərə yönəlməsinin göstəricisidir.

Yuxarıda təsvir edilən hüquqi mövqelər ilə müqayisə etməklə təqdimatla cinayət kollegiyasının hakimlərinin tam tərkibində baxılması üçün çıxarılmış A.S.Dünyamalıyevin barəsində olan cinayət işində üzərindəki “etibarsızdır” sözü silinmiş suvenir 100 nominallı Azərbaycan manatının Cinayət Məcəlləsinin 204-cü maddəsinin predmeti kimi qiymətləndirilməsinin mümkün olub-olmaması məsələsi təhlil edildikdə, qeyd olunmalıdır ki, həmin sözün silinməsinə baxmayaraq ekspertlər onun həqiqi pula xas olan heç bir fiziki-kimyəvi, texnoloji və poliqrafik mühafizə vasitələri ilə təhciz olunmadığını müəyyən etmişlər. Suvenir 100 manatlıq “əsginasın” üzərindəki “etibarsızdır” yazısı silindikdən sonra da həmin “pul” I dərəcəli mühafizə elementləri və ya onların imitasiyası ilə təhciz olunmamış vəziyyətdə qalmaqla Mərkəzi Bank tərəfindən tədavülə buraxılan eyni nominallı pul əsginasından orqanolektik (vizual) əlamətlərə görə fərqlənmiş və

A.S.Dünyamalıyev gecə vaxtı, yəni aldatmanın aşkarlanmasının çətin olduğu şəraitdə həmin suvenir əsginası Xırdalan şəhərində siqaret almaqdan ötrü bir neçə köşkə təqdim etsə də, satıcılar əsginasın həqiqi olmadığını aşkarlayıb onu qəbul etməkdən imtina etmiş, yalnız sonuncu köşkdə A.Dünyamalıyev onun müqabilində siqaret və qalıq pul kimi 96 manat almağa müvəffəq olmuş lakin elə həmin köşkdəcə "əsginas"ın suvenir pul olduğu aşkarlanaraq köşkün sahibi tərəfindən polis orqanına təqdim olunmuşdur.

Bu isə o deməkdir ki, baxılan işdə suvenir kimi leqal satışda olan "əsginas"ı həqiqi əsginasdan fərqləndirən əlamət yalnız onun üzərində "etibarsızdır" sözünün yazılması olmamış və onun silinməsi ilə suvenirin əsl 100 nominallı Azərbaycan manatı ilə adi müşahidəçinin (orta statistik insanın) görə bilməyəcəyi bənzərliyi, müvafiq olaraq da tədavüldə (dövriyyədə) istifadə oluna bilmə keyfiyyəti yaranmamışdır. Başqa sözlə, suvenir "pul"un üzərindəki "etibarsızdır" yazısının mövcudluğu və ya silinmiş olması suvenir pulun həqiqi puldan fərqlənmə dərəcəsini aşkarlayan yeganə amil olmadığından həmin sözün silinməsindən sonra da yerdə qalan digər əlamətlərə görə də A.Dünyamalıyevin siqaret almaq üçün köşkdə təqdim etdiyi predmet əsl puldan aşkar surətdə fərqlənmişdir.

Eyni zamanda, təsvir olunan hallar A.S.Dünyamalıyevin qəsdinin məhdud şəxslər dairəsinin aldadılmasına yönəldiyini nümayiş etdirməklə onun əməlləri ilə CM-in 204-cü maddəsinin mühafizə etdiyi obyektin deyil, CM-in 178-ci maddəsi ilə qorunan mülkiyyətə dair hüquqların təhlükə altına alındığını (lakin vurulmuş ziyanın CM-in 177-ci maddəsinin "Qeyd" hissəsinin I bəndində göstərilən miqdarda olması sübuta yetirilmədiyi üçün əməlin həmin maddə üzrə tövsifi üçün əsasların olmadığını) göstərir.

Beləliklə, Ali Məhkəmənin Cinayət kollegiyası A.S.Dünyamalıyevin barəsində olan cinayət işi üzrə müəyyən edilmiş hallarla əlaqədar təqdimatda qaldırılan problemin həlli baxımından əhəmiyyət kəsb edən hüquqi məsələlər barədə qənaətindən və Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 11 iyun 2015-ci il tarixli qərarının 9-cu bəndinin müvafiq müddəalarına verdiyi şərhlərdən çıxış edərək aşağıdakı yekun nəticəyə gəlir.

Cinayət prosesində ittihamın həlli baxımından əhəmiyyətli olmaqla sübutetmə predmetinə daxil olan bütün digər məsələlər üzrə olduğu kimi, təqdimatda qaldırılan məsələnin (üzərindəki "etibarsızdır" sözü silindikdən sonra bu cür suvenir əsginasdan həqiqi əsginas kimi istifadə olunaraq (başqasını aldatmaqla) özgə əmlakının ələ keçirilməsinin hüquqi tövsifi probleminin) həlli də məsələyə aidiyyəti olan bütün halların tam, hərtərəfli və obyektiv araşdırılmasına, həmin hallar, o cümlədən cinayətin predmetinin həqiqi pul əsginasından aşkar surətdə fərqlənib-fərqlənməməsi, onu hazırlayan, ödəniş vasitəsi kimi təqdim edən şəxsin qəsdinin məhdud şəxslər dairəsinin aldadılmasına yönəlib-yönəlməməsi kimi suallar üzrə düzgün nəticəyə gəlmək üçün kifayət edən sübutların məcmusuna, onların CPM-in tələblərinə müvafiq surətdə tədqiq edilib-qiymətləndirilməsinə əsaslanmalıdır.

Bu zaman nəzərdən qaçırılmamalıdır ki, suvenir kimi leqal satışda olan müvafiq nominal pul əsginasının oxşarının həqiqi əsginasdan fərqi yalnız suvenirin üzərində "etibarsızdır" yazısının olmasında deyil. Suvenir əsginas həm də həqiqi pul əsginasına xas olan heç bir fiziki-kimyəvi, texnoloji və poliqrafik mühafizə vasitələri ilə təchiz

olunmadığı, tədavülə buraxılan eyni nominallı pul əsginasından orqanolektik (vizual) əlamətlərinə görə fərqləndiyi üçün həmin predmet "etibarsızdır" sözü silindikdə belə, tədavüldə ola bilmə (dövriyyəyə pul olaraq girmə) keyfiyyətini əldə etmir.

Odur ki, əgər üzərindəki "etibarsızdır" yazısının silinməsindən başqa, suvenir "pulu"un əslinə bənzədilməsi (əslindən aşkar surətdə fərqlənməməsi) üçün o, başqa əlamətlərlə təchiz edilməyibsə (üzərində bu yöndə başqa dəyişiklik edilməyibsə), müstəsna olaraq "etibarsızdır" sözünün silinməsi sözügedən predmeti CM-in 204-cü maddəsinin predmetinə çevirmir və əgər şəxs belə predmetdən istifadə etməklə (aldatmaqla) özgə əmlakını ələ keçirirsə, cinayət məsuliyyətinin yaranması üçün tələb olunan digər əsaslar da olduqda, şəxsin əməli dələduzluq kimi – CM-in 178-ci maddəsi ilə tövsif olunmalıdır.

Hazırki qərarda ifadə olunmuş hüquqi mövqelər A.S.Dünyamalıyevin barəsində cinayət işinə baxan məhkəmə tərkibi tərəfindən, eləcə də bu qərarda nəzərdən keçirilmiş A.S.Dünyamalıyevin barəsində olan iş üzrə müəyyən edilmiş hallara analoji halların olduğu digər işlərə baxılarkən də nəzərə alınmalıdır.

Azərbaycan Respublikası Cinayət kollegiyası (kollegiyaya daxil olan bütün hakimlərdən ibarət tərkibdə) yuxarıda göstərilənlərə əsasən, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 419-1-ci maddəsini rəhbər tutub

**Q Ə R A R A  A L D I:**

Təqdimatda qaldırılan məsələnin (üzərindəki "etibarsızdır" sözü silindikdən sonra bu cür suvenir əsginasdan həqiqi əsginas kimi istifadə olunaraq, yəni aldatmaqla özgə əmlakının ələ keçirilməsinin hüquqi tövsifi probleminin) həlli bu məsələyə aidiyyəti olan bütün halların tam, hərtərəfli və obyektiv araşdırılmasına, həmin hallar barədə, o cümlədən cinayətin predmetinin həqiqi pul əsginasından aşkar surətdə fərqlənib-fərqlənməməsi, onu hazırlayan, ödəniş vasitəsi kimi təqdim edən şəxsin qəsdinin məhdud şəxslər dairəsinin aldadılmasına yönəlib-yönəlməməsi kimi suallar üzrə düzgün nəticəyə gəlmək üçün kifayət edən sübutların məcmusuna, onların Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsində təsbit olunmuş tələblərə müvafiq surətdə tədqiq edilib-qiymətləndirilməsinə əsaslanmalıdır.

Bu zaman nəzərdən qaçırılmamalıdır ki, suvenir kimi leqal satışda olan müvafiq nominal pul əsginasının oxşarının həqiqi əsginasdan fərqi yalnız suvenirin üzərində "etibarsızdır" yazısının olmasında deyil. Suvenir əsginas həm də həqiqi pul əsginasına xas olan heç bir fiziki-kimyəvi, texnoloji və poliqrafik mühafizə vasitələri ilə təchiz olunmadığı, tədavülə buraxılan eyni nominallı pul əsginasından orqanolektik (vizual) əlamətlərinə görə fərqləndiyi üçün həmin predmet "etibarsızdır" sözü silindikdə belə, tədavüldə ola bilmə (dövriyyəyə pul olaraq girmə) keyfiyyətini əldə etmir.

Odur ki, əgər üzərindəki "etibarsızdır" yazısının silinməsindən başqa, suvenir "pulu"un əslinə bənzədilməsi (əslindən aşkar surətdə fərqlənməməsi) üçün o, başqa

əlamətlərlə təchiz edilməyibsə (üzərində bu yöndə başqa dəyişiklik edilməyibsə), müstəsna olaraq “etibarsızdır” sözünün silinməsi sözügedən predmeti CM-in 204-cü maddəsinin predmetinə çevirmir və əgər şəxs belə predmetdən istifadə etməklə (aldatmaqla) özgə əmlakını ələ keçirirsə, cinayət məsuliyyətinin yaranması üçün tələb olunan digər əsaslar da olduqda, şəxsin əməli dələduzluq kimi – CM-in 178-ci maddəsi ilə tövsif olunmalıdır.

Hazırki qərarda ifadə olunmuş hüquqi mövqelər A.S.Dünyamalıyevin barəsində cinayət işinə baxan məhkəmə tərkibi tərəfindən, eləcə də bu qərarda nəzərdən keçirilmiş A.S.Dünyamalıyevin barəsində olan iş üzrə müəyyən edilmiş hallara analoji halların olduğu digər işlərə baxılarkən də nəzərə alınmalıdır.

**Sədrlik edən** **H.Q.Nəsibov**